**Vahid Ədalət oğlu Əliyev**

**UOT:336:336.02:**33671; **JEL:E5;E44;G32.**

# Maliyyə xidmətləri bazarında sistem əhəmiyyətli bankların səmərəliliyinin nəzəri-metodoloji məsələləri

***Xülasə***

*Tədqiqatın məqsədi - maliyyə xidmətləri bazarında sistem əhəmiyyətli bankların səmərəliliyinin nəzəri-metodoloji məsələlərinin tədqiqidir. Bunun üçün maliyyə xidmətləri bazarının xüsusiyyətləri araşdırılmış və problemləri açıqlanmışdır. Maliyyə xidmətləri bazarının inkişaf etdirilməsi imkanları baxılmış, bu problemlərə dair müəllif yanaşmaları müəyyənləşdirilmişdir. Ölkənin maliyyə xidmətləri bazarında sistem əhəmiyyətli bankların rolu araşdırılmış və onların funksiyaları verilmişdir. Müasir dövrdə sistem əhəmiyyətli bankların rəqabət qabiliyyətinin artırılması və maliyyə xidmətləri bazarında onların rolunun yüksəldilməsi məsələlərinə toxunumuşdur. Tədqiqatın metodologiyası – kimi əsasən müxtəlif iqtisadi metodlardan, ilk növbədə analiz, sintez, müqayisəli təhlil və s. istifadə olunmuşdur. Bundan başqa, sistem əhəmiyyətli bankların qlobal təhdidlər dövründə maliyyə xidmətləri bazarında səmərəli fəaliyyətinə dair digər alim və tədqiqatçıların metodoloji yanaşmaları da nəzərə alınmışdır. Tədqiqatın tətbiqi əhəmiyyəti – burada əks olunmuş materiallardan ölkəmizdə maliyyə xidmətləri bazarının intensivliyinin təmin olunmasında, bu proseslərdə sistem əhəmiyyətli bankların rolunun artırılması üzrə tədbirlərin və mexanizmlərin işlənməsində, həmçinin tədris vəsaitlərinin hazırlanmasında istifadə oluna bilər. Tədqiqatın nəticələri – müasir şəraitdə sistem əhəmiyyətli bankların səmərəliliyinin artırılması və onların maliyyə xidmətləri bazarının genişləndirilməsində daha fəal iştirakını təmin edən işlək mexanizmlərin hazırlanması və tətbiqinə dair təkliflərin verilməsindən ibarətdir. Tədqiqatın orijinallığı və elmi yeniliyi – burada baxılan materiallar məqalədə qarşıya qoyulan məqsəd istiqamətində işlənib və əsasən orijinal materiallardan, müəllif yanaşmalarından ibarərtdir. Başlıca elmi yenilik: qlobal risklərin artdığı bir dövrdə ölkənin makroiqtisadi və makromaliyyə sabitliyinin gücləndirilməsində strateji əhəmiyyət kəsb edən maliyyə bazarında sistem əhəmiyyətli bankların səmərəliliyinin əsaslandırılmasıdır. Bununla bərabər, sistem əhəmiyyətli bankların maliyyə xidmətləri bazarında səmərəliliyinin yüksəldilməsi istiqamətindəki problemlər verilmiş, diskussiya xarakterli məsələlər qabardılmış və bu sahədə əhəmiyyətli səviyyədə təkmilləşdirmələrin aparılması ön plana çıxarılmışdır.*

***Açar sözləri:*** *bank, maliyyə, maliyyə xidmətləri bazarı, sistem əhəmiyyətli banklar, maliyyə xidmətləri bazarının inkişaf problemləri, sistem əhəmiyyətli bankların əhəmiyyəti, sistem əhəmiyyətli bankların maliyyə bazarında rolu.*

## Giriş

Müasir dövrdə maliyyə xidmətləri bazarının dinamikliyinin inkişaf etdirilməsi və qlobal təhdidlərə qarşı adekvat tədbirlərin görülməsi vacib şərtlərdən biridir. Bundan əlavə, maliyyə bank mexanizmlərinin səmərəliliyinin yüksəldilməsi ilə bağlı ardıcıl tədbirlərin görülməsi və mövcud mexanizmlərin təkmilləşdirilməsi məsələlərinə konseptual yanaşmaların təmin edilməsi strateji əhəmiyyət kəsb edir. Belə ki, sistem əhəmiyyətli bankların xidmətləri ilə bağlı özünəməxsus fəaliyyət strategiyası və balanslaşdırılmış kredit portfelinin olması, onun strukturunun diversifikasiyalaşdırılması problemlərinin həll edilməsi dövrün tələbidir. Eyni zamanda, qeyd edək ki, maliyyə bazarında mürəkkəb formada geniş əhatədə iqtisadi aspektli əməliyyatlar baş verir və fəaliyyət reallaşdırılır. Bu bazarda çoxlu sayda vasitəçilər kifayət

*©Vahid Ədalət oğlu Əliyev Azərbaycan Dövlət İqtisad Universiteti, dissertant. E-mail: vahid.eliyev@gmail.com.*
*©AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*

qədər fəal formada fəaliyyət göstərirlər. Maliyyə bazarının strateji funksiyası maliyyə resurslarının səmərəli hərəkətinin təmin edilməsidir, yəni maliyyə resurslarının tələbdən çox olduğu yerlərdən, onun tələb olunan istiqamətlərə axınının sürətləndirilməsi maliyyə bazarının əsas vəzifələrindən biri kimi xarakterizə edilir [1]. Əslində, maliyyə bazarı maliyyə-təsərrüfat fəaliyyətinin mərkəzi, "döyünən ürəyi" kimi də dəyərləndirilə bilər və hesab edirik ki, bu yanaşmada müəyyən qədər loqika vardır və bu fikri dərinləşdirmək mümkündür. Belə ki, maliyyə təminatı və problemlərinin həll edilmədiyi təqdirdə hər hansı bir layihənin, strateji proqramların və tədbirlərin reallaşdırılması qeyri-mümkündür, bundan əlavə maliyyə bazarlarında bir çox mühüm məsələlər, məsələn qiymətlərin formalaşması və bazar tənzimlənməsi prosesləri gedir, o cümlədən bank xidmətlərinin adekvatlığı, səmərəliliyi nizamlanır, korrelyasiya olunur [2]. Eyni zamanda, maliyyə bazarlarında baş verən əməliyyatlarla bağlı proseslərdə xərclərin optimallaşdırılması, investisiyaların daha səmərəli sahələrə yönəldilməsi, maliyyə resurslarından istifadənin maksimum səmərəli mexanizmlərinin işlənib hazırlanması və təkmilləşdirilməsi, tətbiqi prosesləri intensiv şəkildə dövr edir. Bu qeyd olunan amillər baxımından maliyyə xidmətləri bazarında sistem əhəmiyyətli bankların straterji funksiyalarının və fəaliyyət prinsiplərinin optimallığının, işləkliyinin təmin edilməsi vacib şərtlər kimi xarakterizə olunur və irəlidə bunlarla bağlı məsələlərə toxunulacaqdır [3].

**Qlobal şəraitdə maliyyə xidmətləri bazarında sistem əhəmiyyətli bankların səmərəlilik məsələlərinə yanaşmalar**

Qlobal şəraitdə maliyyə-bank mexanizmlərinin uzunmüddətli dövr üçün təkmilləşdirilməsi və fəaliyyət prinsiplərinin balanslaşdırılmış formada müəyyənləşdirilməsi bankların fəaliyyətinin sabitliyində həlledici rol oynayır. Bunlarla belə, maliyyə-kredit sistemində, qlobal maliyyə bazarlarında və bank fəaliyyətində əhəmiyyətli dəyişikliklərin sürətləndiyi və təzyiqlərin ardığı bir dövrdə bir müddət özünü sabit göstərmiş mexanizmlər ola bilər ki, yetərli olmasın və maliyyə bazarlarının əvvəlki dinamikliyi və çevikliyinin bərpa olunması, onların məhsuldarlığının artırılması üçün əlavə tədbirlərin görülməsi lazım gəlir [4]. Çünki, beynəlxalq maliyyə və bank təzyiqləri altında kredit resurslarının, maliyyə vəsaitlərinin ayrılmasında, investisiyaların cəlbedilməsində, beynəlxalq səviyyədə hərəkətində məhdudiyyətlər ortaya çıxır, qaydalar və şərtlər isə kifayət qədər sərtləşir, əlavə çətinliklər yaranır və problemlər artır [5]. Bunlarla bərabər, iqtisadiyyatın transformasiyası dövründə bank sisteminin rolu və inkişafı məsələsi daha çox aktuallıq kəsb edir. Belə ki, iqtisadiyyatın inkişafının modelləşdirilməsi və intensivləşdirilməsi üçün maliyyə xidmətləri bazarının daha çevik və səmərəli mexanizmləri, sistem komponentli fəaliyyət sahələri olmalıdır və bu sırada ilk yeri banklar tuturlar. Sistem əhəmiyyətli banklar maliyyə xidmətləri bazarının ən fəal və mühüm iştirakçısı kimi xarakterizə olunurlar. Bu bazarda fasiləsiz şəkildə maliyyə resursları dövriyyə edir və pul bazarlarının əsas qurumları kimi sistem əhəmiyyətli banklar çoxsaylı funksiyaları yerinə yetirirlər.



Banklar pul bazarının ən önəmli qurumlarıdır. Kommersiya banklarının mənbələrini təşkil edən əmanətlər qısamüddətli oduğu üçün bankların satdıqları fondlar da (kreditlər) qısamüddətli olmaqdadır [6]. Pul bazarı alətləri sırasına hökümətlərin ixrac etdiyi xəzinə bonoları-dövlət istiqrazları, özəl sektor qurumlarının ixrac etdiyi xəzinə bondları, dövlət istiqrazları, özəl sektor qurumlarının ixrac etdiyi finansman bondları, bankların ixracetdiyi depozit sertifikatları, repo anlaşmaları aid edilə bilir. Maliyyə xidmətləri bazarının daha səmərəli təşkilində və fəaliyyətində bank sisteminin yerinə yetirdiyi funksiyalar kifayət qədər geniş əhatəlidir və bu baxımdan həmin bazarda olan sistemli risklərin nisbətən azaldılması, real pul kütləsinə, maliyyə və investisiya resurslarına olan tələblərin operativ qarşılanması, hüquqi və fiziki şəxslərə daha səmərəli fəaliyyət üçün kreditlərin verilməsi, yerlərdə bank

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

fəaliyyətinin təşkili hesabına əhalidən istifadəsiz vəziyyətdə qalan maliyyə-pul resurslarının depozit formasında fəal dövriyyəyə cəlbedilməsi kimi mühüm funksiyaların yerinə yetirilməsində sistem əhəmiyyətli bankların böyük əhəmiyyəti vardır [7]. Bu amillər baxımından maliyyə bazarlarının dinamikliyinə və inkişafına müsbət təsir edən maliyyə-bank mexanizmlərinin səmərəliliyindən maksimum məhsuldar istifadə olunması zərurəti ortaya çıxır, belə olduğu təqdirdə isə bankların həmin proseslərdə rolunun daha fundamental şəkildə qiymətləndirilməsi aktuallığı ilə xeyli diqqət çəkir. Ümumilikdə, sistem əhəmiyyətli banklar hazırkı dövrdə maliyyə xidmətləri bazarında maliyyə resurslarının alqı-satqısı funksiyasının əsas təşkilediciləri, həm də icraedici subyektləri olmaqla yanaşı, ölkədə maliyyə resurslarının hərəkətinin tənzimlənməsi, cəlb olunması və yenidən bölüşdürülməsi prosesində önəmli əhəmiyyət kəsb edirlər.

Sistem əhəmiyyətli bankların fəaliyyətinin sabitliyi üçün dövlət tərəfindən görülən tədbirlər məqsədli olaraq həyata keçirilməli, əvvəldə qeyd etdiyimiz kimi güclü bank qanunvericiliyi formalaşdırılmalıdır [8]. Bank risklərinin idarəedilməsi ilə bağlı standartlar və prinsiplər, idarəetmə mexanizmləri risklərin mahiyyəti və təsir dairəsinə uyğun şəkildə təkmilləşdirilməlidir. Real sektorun kreditləşdirilməsi ilə bağlı yönəldilən resursların uzunmüddətli dövr üçün gəlirlilik prinsiplərinin və dərəcələrinin bankın ümumi rentabellik və gəlirlilik göstəriciləri ilə uzlaşdırılması, məcmu bank aktivlərinin – məcmu kapitalın tarazlaşdırılması, ehtiyatların formalaşdırılması və kapital artımı mənbələrinin sabitliyinin təmin edilməsi tədbirləri həyata keçirilməlidir. Məcmu kapitalın artırılması və bankın maliyyə sabitliyin təmin edilməsi istiqamətində qlobal trendlər və təhlükələr ciddi şəkildə nəzərə alınmaqla fəaliyyət strategiyası hazırlanmalı və onun reallaşdırılması üzrə işlək nəzarət mexanizmləri müəyyənləşdirilməlidir. Eyni zamanda, sistem əhəmiyyətli bankların uzunmüddətli dövr üçün kredit strategiyasının formalaşdırılması, kredit portfelinin maliyyə xidmətləri bazarının inkişaf tendensiyalarına və hədəflərinə adekvatlığının təmin edilməsi tədbirlərinə xüsusi önəm verilməlidir [9]. Bundan başqa, iqtisadiyyatın dinamik inkişafı, onun müxtəlif sahələrinin ahəngdar fəaliyyət göstərməsi üçün tələb olunan kapitalın maksimum səmərəli bölüşdürülməsi, bazarda mövcud olan tələb və təklifə uyğun şəkildə pul axınlarının tənzimlənməsi, yəni cəlb edilməsi və ya əksinə, onların bölüşdürlüməsi kimi mühüm funksiyaların yerinə yetirilməsində sistem əhəmiyyətli banklar geniş funksiyaların öhdəsindən gəlirlər. Maliyyə bazarı əslində kreditorlar və borc alanlar arasında kapitalın bölüşdürülməsi mexanizmidir, bu bazar özündə maliyyə-kredit institutlarını birləşdirir və pul axınlarını onların sahiblərindən borcalanlara yönəltməkdə və geriyə qaytarmaqda əsas funksiyaları yerinə yetirir.

Sistem əhəmiyyətli banklar maliyyə bazarında təkcə maliyyə-kredit vasitəçisi kimi çıxış etmir, həm də maliyyə xidmətləri bazarına multiplikativ təsir göstərir, bir tərəfdən depozitlər formalaşdırır, əmanətlər cəlb edir, o biri tərəfdən isə kreditlər verir [10]. Sistem əhəmiyyətli banklar fiziki və hüquqi şəxslərin maliyyə resurslarını cəlb etməklə, onları tələb olunan fəaliyyət istiqamətlərinə yönəltməklə maliyyə xidmətləri bazarının sabitliyini təmin etmiş olur və bu proseslərdə banklar maliyyə xidmətləri bazarının bütün iştirakçıları ilə sıx əlaqədə fəaliyyət göstərirlər [11]. Ölkənin makroiqtisadi və makromaliyyə sabitliyinin təminatçısı kimi çıxış edən maliyyə sabitiliyinin formalaşmasında sistem əhəmiyyətli banklar fasiləsiz rejimdə fəaliyyət göstərən mexanizm təsəiri bağışlayırlar. Eyni zamanda, sistem əhəmiyyətli bankların ölkə iqtisadiyyatında strateji rolundan çıxış etməklə, onların fəaliyyətinin maliyyə xidmətləri bazarlarına təsirinin uzunmüddətli dövr üçün maksimum optimal proqnozlaşdırılması və buna uyğun fəaliyyət mexanzimlərinin hazırlanması vacib şərtlərdəndir. Bankların rəqabət qabiliyyətliliyinin artırılması və onların maliyyə bazarlarında fəaliyyətinin səmərəliliyinin yüksəldilməsi tədbirlərinə metodoloji yanaşmalar yenilənməlidir.



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

Bu məsələlərə baxıldıqda, ilk növbədə maliyyə təhlükəsizliyi ilə bağlı problemlər, o cümlədən maliyyə xidmətləri bazarının xüsusiyyətləri nəzərə alınmalıdır.

Bankların inkişafı ilə bağlı strateji yanaşmalarda onların mövcud mexanizmlərinin qlobal bank-maliyyə və kredit çağırışlarının adekvat olaraq təkmilləşdirilməsi tədbirlərinə geniş yer verilməlidir. Bu məqsədlə, dayanıqlı və eyni zamanda maksimum səmərəliliyi ilə fərqlənən fəaliyyət mexanizmlərinin bankın fəaliyyət strategiyasına daxil edilməsi təmin olunmalıdır [12]. Bir çox hallarda, bankın fəaliyyəti ilə bağlı risklərin, daxili və xarici təhlükələrin, bankın mühüm fəaliyyət komponenti olan - kredit portfelinin riskləri ilə bağlı problemlərə çevik və sistemli yanaşmaların təmin olunmaması səbəbindən, banklar itkilərlə üzləşir və uzunmüddətli dövr üçün üzləşdikləri zərərin aradan qaldırılmasına vaxt, vəsait, resurs itirməli olurlar. Buna görə də, sistem əhəmiyyətli banklarda fəaliyyətin sabitliyinin təmin edilməsi və onların maliyyə xidmətləri bazarında rolunun möhkəmləndirilməsi məqsədilə risklərin idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi vacib şərtlərdəndir.

**Maliyyə xidmətləri bazarında sistem əhəmiyyətli bankların səmərəliliyinin artırılması istiqamətləri**

Başqa bir problem, bank sektorunda və maliyyə xidmətləri bazarında rəqabətqabiliyyətliliyinin qorunması və onun üstün elementlərinin daha da möhkəmləndirilməsi ilə bağlıdır. Sistem əhəmiyyətli banklar özlərinin resurs potensialının balanslaşdırılması hesabına bank xidmətlərinin çeşidinin genişləndirilməsi və keyfiyyətinin yüksəldilməsi imkanları ilə maliyyə xidmətləri bazarında sağlam rəqabət mühitinin formalaşdırılmasında əhəmiyyətli funksiyaları yerinə yetirirlər. Bundan əlavə, sistem əhəmiyyətli banklar iqtisadiyyatın müxtəlif sahələrinə külli məbləğdə və fasiləsiz şəkildə kredit resursları yönəltməklə, makroiqtisadi və makromaliyyə sabitliyinin balanslaşdırılmasına, maliyyə xidmətləri bazarının dinamikliyinə müsbət təsir göstərirlər. [13]. Belə ki, məhz bank kapitalı hesabına iqtisadiyyatın real fəaliyyət sahələri maliyyələşdirilir və ölkədə makroiqtisadi sabitliyin təmin edilməsi potensialı formalaşdırılır, bu isə öz növbəsində həm də maliyyə xidmətləri bazarının sabitliyi deməkdir. Sistem əhəmiyyətli banklarla bağlı yeni yanaşmalar tələb olunur və belə ki, qlobal dəyişikliklər şəraitində material və pul resurslarına tələbat daim artmaqda davam edəcəkdir, bu baxımdan bank fəaliyyətinin səmərəliliyi də dəfələrlə artırılmalıdır [14]. Ölkədə maliyyə sabitliyinin balanslaşdırılmasında system əhəmiyyətli bankların rolunun strateji səviyyədə qiymətləndirilməsi və dövlətin maliyyə-kredit və maliyyə-pul siyasətində xüsusi nəzərə alınması vacib şərtlərdəndir. Bankların rəqabətqabiliyyətlərinin artırılması və praktiki fəaliyyət proseslərində geniş istifadə olunan maliyyə-bank mexanizmlərinin səmərəliliyinin yüksəldilməsinə ciddi önəm verilməlidir. Bunlarla yanaşı, müasir dövrün yeni tələblərini qarşılaya biləcək müasir bank texnologiyalarının işlənməsi və fəal tətbiqinə üstünlük verilməlidir, yəni müxtəlif bank xidmətlərinin göstərilməsi proseslərində müştəri məmnunluğu, keyfiyyət, rəqabətqabiliyyətlilik kimi elementlər ön plana çəkilməlidir. Müştərilərin tam mənada məmnunluğunu təmin etmək üçün tələb olunan bank xidməti çeşidləri formalaşdırılmalı, infrastruktur yaradılmalı, bank əməliyyatlarının operativliyi təmin olunmalı, vaxt itkisinə yol verilməməli, müştərilər üçün geniş spektrdə informasiya mənbəyi yaradılmalı və informasiya-məsləhət xidmətləri göstərilməlidir.

Başqa bir problem, bank sistemi ilə maliyyə bazarları arasında olan qarşılıqlı münasibətlərin müasir dövrün tələblərinə uyğunlaşdırılmasından ibarətdir. Maliyyə və kredit bazarında rəqabətqabiliyyətlilik mühitinin şəffaflığı, sağlam münasibətlərin formalaşdırılması, maliyyə və mühasibatlıq uçotu üzrə hesabatların dürüstlüyü, onların beynəlxalq standartlara uyğunluğu diqqət mərkəzində saxlanılmalı, təkmilləşdirilməsi tələb olunan hər bir istiqamət üzrə ardıcıl tədbirlər görülməli, bütövlükdə maliyyə bazarları iştirakçılarının fəaliyyətlərində



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

maliyyə-bank mexanizmlərinin səmərəliliyinin artırılması səmərəlilik təşkil etməlidir. Eyni zamanda bu bazar iştirakçılarının münasibətləri ilə müasir dövrün çağırışları arasındakı ziddiyyətlər və problemlər mütləq şəkildə nəzərə alınmalıdır. Bundan əlavə, bank fəaliyyəti ilə bağlı, həmçinin maliyyə-bank mexanizmlərinin səmərəliliyinin yüksəldilməsi ilə əlaqədar görülən tədbirlərin əsasında yeniliyə can atmaqla bərabər, çəkilən xərclərin optimallaşdırılmasına xüsusi fikir verilməlidir. Burada informasiya-kommunikasiya texnologiyalarının imkanlarından və müasir bank texnologiyalarından fəal və səmərəli istifadə edilməsi ön plana çəkilməlidir. Eyni zamanda, bankların fəaliyyətinin qlobal maliyyə çağırışları və mövcud maliyyə çətinlikləri baxımından daha çevik və optimal olaraq modelləşdirilməsi tədbirləri görülməli, bunun üçün bank fəaliyyətinin səmərəliliyinin obyektiv müəyyənləşdirilməsi göstəriciləri, meyarları və prosedurları müasir reallıqlar nəzərə alınmaqla təkmilləşdirilməli, onlara uyğun olaraq yeni fəaliyyət mexanizmləri həyata keçirilməlidir.

Sistem əhəmiyyətli bankların ölkə iqtisadiyyatında strateji rolundan çıxış etməklə, onların fəaliyyətinin maliyyə xidmətləri bazarlarına təsirinin uzunmüddətli dövr üçün maksimum optimal proqnozlaşdırılması və buna uyğun fəaliyyət mexanizmlərinin hazırlanması, hər bir bank strukturunun və filialların istifadə etdikləri maliyyə-bank mexanizmlərinin səmərəliliyinin yüksəldilməsinə diqqətin artırılması təmin olunmalıdır. Bankların fəaliyyət prinsiplərinin yenilənməsi, biznes strategiyasının inkişaf etdirilməsi, xüsusilə investisiyaların cəlbi istiqamətində mövcud mexanizmlərin səmərəliliyinin artırılması son nəticədə maliyyə-bank mexanizmlərinin məhsuldarlığına əhəmiyyətli təsir göstərir [15]. Sistem əhəmiyyətli bankların maliyyə qeyri-sabitliyi dövründə dayanıqlılıq nöqteyi-nəzərindən tələb olunan fəaliyyət mexanizmlərinin hazırlanaraq sistemləşdirilməsi və onların reallaşdırılması istiqamətində işlək alətlərin tətbiqi xüsusi diqqət mərkəzində saxlanılmalıdır. Ölkənin maliyyə sistemi və maliyyə-kredit təşkilatları, bank sektorunun əhəmiyyətli subyektləri qlobal təsirlərin gücləndiyi bir şəraitdə daha çox inteqrativ və dayanıqlılıq dəyərlərinə, mexanizmlərinə üstünlük verilməli, sıx əməkdaşlıq etməli, balanslı və səmərəli kredit portfeli siyasəti formalaşdırılmalı, risklərin optimal idarəetmə mexanizmlərini yaratmalıdırlar. Məlumdur ki, banklar ölkədə pul tədavülü ilə bağlı mühüm funksiyanı, onun tənzimlənməsini həyata keçirirlər. Eyni zamanda, sistem əhəmiyyətli banklar maliyyə xidmətləri bazarının əsas seqmentlərini formalaşdıran bazar iştirakçısı kimi mühüm funksiyaların təşkilatçılarıdır və buna görə də, sistem əhəmiyyətli banklar həm də maliyyə bazarları iştirakçılarının tələb və təklifini dəyərləndirir və nəzərə alırlar. Qeyd edək ki, Azərbaycanda da son illərdə maliyyə bazarlarında xeyli çətinliklər yaranmışdır, milli valyuta - manat ikiqat devalvasiyaya məruz qalmış və bir neçə bank iflasa uğramışdır. Ölkədə kredit resurslarının ahəngdarlığı pozulmuş və onların ayrılmasında məhdudiyyətlər yaranmış, kredit resurslarının əlçatanlığı pisləşmişdir. Burada yenə əsas ağırlıq sistem əhəmiyyətli bankların üzərinə düşmüşdür. Ölkəmizdə bir qrup daha iri kapitala və aktivlərə malik olan sistem əhəmiyyətli bankların fəaliyyəti hesabına (Kapital Bank, Pasha Bank və s.) maliyyə-kredit sisteminin fəaliyyəti nisbətən sabitləşmiş və maliyyə xidmətləri bazarının intensivliyi bərpa olunmuşdur. Bundan əlavə, ölkə Prezidentinini 2016-cı il 06 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi"ndə maliyyə xidmətlərinin çeşidinin və səmərəliliyinin artırılması istiqamətləri üzrə strateji hədəflər müəyyənləşdirilmişdir [16].

**Nəticə**

Müasir dövrdə maliyyə xidmətləri bazarının inkişaf etdirilməsi və qlobal risklər konteksində adekvat tədbirlərin görülməsi strateji əhəmiyyət kəsb edir. Buna görə də, nəzəri aspektlər diqqət mərkəzində saxlanılmaqla, daha çox dövrün tələblərinə uyğun olan



*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*

metodoloji yanaşmaların işlənməsi və uslubların müəyyənləşdirilməsi vacibdir. Belə ki, sistem əhəmiyyətli bankların inkişaf problemləri sırasında daha çox bank qanunvericiliyində boşluqların olması, bankların əksəriyyətinin xarici maliyyə mənbələrindən asılılığı, mövcud bank mexanizmlərinin qlobal çağırışlarla qeyri-mütənasibliyi, bankların kapitallaşma proseslərində məhsuldar mənbələrin azlığı və kapital çatışmamazlığı, bank risklərinin idarəetmə mexanizmlərinin zəifliyi, kredit portfelinin diversifikasiyalaşdırılması problemlərinin çox olması, real sektorun kreditləşdirilməsinin daha səmərəli modellərinin hazırlanmasına marağın azlığı, bankların rəqabət qabiliyyətliliklərinin aşağı düşməsi, müştərilərin banklara inamının nisbətən zəifləməsi diqqət çəkirlər. Bu amillər baxımından, sistem əhəmiyyətli bankların inkişaf problemlərinin həlli üçün, ilk növbədə bank qanunvericiliyinin və normativ sənədlərin mütərəqqi dünya təcrübəsinə uyğunlaşdırılması, maliyyə xidmətləri bazarında bank xidmətlərinin çeşidinin genişləndirilməsi və keyfiyyətinin yüksəldilməsi tədbirlərinə daha çox üstünlük verilməlidir. Ümumilikdə, qlobal təhdidlərin mənfi təsirini azaltma üçün və maliyyə xidmətləri bazarında sistem əhəmiyyətli bankların səmərəli fəaliyyətin təşkil olunması məqsədilə bir qrup tədbirlərə daha çox diqqət yönəldilməlidir: hazırkı dövrün tələbləri və şərtləri ciddi şəkildə dəyərləndirilməli, yaranan situasiyaya uyğun olaraq kompleks və sistemli tədbirlər həyata keçirilməli, maliyyə xidmətləri bazarının intensivliyini təmin edə biləcək mexanzimlərə üstünlük verilməli və bu proseslərdə sistem əhəmiyyətli bankların məhsuldar fəaliyyət mexanizmlərinin hazırlanması və tətbiqi təmin olunmalıdır; maliyyə bazarı iştirakçılarının sistem əhəmiyyətli banklarla əlaqələrinin qlobal bank və maliyyə çağırışlarına uyğun şəkildə tənzimlənməsi və fəaliyyət mexanizmlərinin təkmilləşdirilməsi tədbirləri ardıcıl olaraq reallaşdırılmalı və maliyyə xidmətləri bazarında tətbiq olunan mövcud mexanizmlərin, həmçinin bank alətlərinin beynəlxalq standartlar səviyyəsində tənzimlənməsi tədbirlərinə ciddi zərurət vardır; sistem əhəmiyyətli bankların hər birinin qlobal risklərə qarşı və dünya maliyyə bazarının inkişaf tendensiyalarına uyğun fəaliyyət strategiyası olmalı, onların maliyyə dayanıqlılığı gücləndirilməlidir, kredit portfeli diversifikasiyalaşdırılması və ümumilikdə bank xidmətləri paketinin əlçatanlığı tədbirləri görülməlidir.

## Ədəbiyyat

1. Ряскова, Е.С. Макропруденциальное регулирование системно значимых финансовых институтов // Государственное управление. Электронный вестник. – 2017, №63, – с. 320.
2. Modigliani, F. The Cost of Capital, Corporation Finance, and the Theory of Investment / F.Modigliani, M.H.Miller // American Economic Review. – 1958. Vol. 48. June. № 3, p. 261.
3. Лукин, С. Г. Оценка финансовой устойчивости коммерческого банка и пути её повышения // Молодой ученый. — 2017. №37. - С. 60-64.
4. Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 06 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir. Bakı, 2016. -59 s.
5. Шакер, И.Е. Роль стандартизированного подхода к измерению кредитного риска контрагента (Базель III) в целях создания условий для экономического роста России. // Экономика. Налоги. Право. – 2019. № 3, –с. 144-153.
6. Məmmədov, Z. Pul. Kredit. Banklar. Z.Məmmədov, Z.İbrahimov. – Bakı: Qanun, – 2009.
7. Никулина, И.Е., Контос, Е.Г. Сравнительный анализ банковских систем различных стран // Фундаментальные исследования. – 2017. – № 2. – С. 185-193.
8. Ələkbərov, Ə., Sadıqov E. Müasir dövrdə maliyyə bazarlarında bank resurslarının iqtisadiyyata təsirinin gücləndirilməsi mühüm strateji prioritetdir / Ə.Ələkbərov, E.Sadıqov // Maliyyə, kredit və pul tədavülü məsələləri jurnalı. – 2018. 04 (311) – s. 14-21.
9. Əliyev, M.F. Bankların inkişaf istiqamətləri. Monoqrafiya / M.F.Əliyev. – Bakı: Şərq-Qərb Nəşriyyat evi, – 2011. – 120 s.

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

10. Əliyev, V.Ə. Azərbaycanın maliyyə xidmətləri bazarında sistem əhəmiyyətli bankların multiplikativ xüsusiyyətlərinin mühüm aspektləri // – Bakı: Geostrategiya jurnalı, – 2019. № 5.
11. Kərimov, A.E. Kommersiya banklarının xidmət fəaliyyətinin genişləndirilməsi və inkişaf etdirilməsi problemləri: / İ.e.d., dissertasiyasının avt-rı.) / – Bakı, – 2012. – 56 s.
12. Гавриченко, Н.В. Международный опыт устойчивости развития КБ // Научно-методический электронный журнал Концепт, – 2017, Т.18, – с. 37-42.
13. Sadıqov, E.M. Bank əməliyyatları / E.M.Sadıqov. Bakı: İqtisad Universiteti Nəşriyyatı. – 2010.
14. Алиев, В.А. Стратегическая важность системно значимых банков на рынке финансовых услуг в Азербайджане // Финансовая экономика, 2020 № 04. –с. 323-328.
15. Məmmədov, Z.F. Bank fəaliyyətinin əsasları. (Elmi-nəzəri və praktiki məlumat kitabı) / Z.F.Məmmədov. – Bakı: Azərnəşr, – 2013. – 480 s.
16. Global systemicaly important banks: assessment methodology and the additional loss absorbency requirement. Basel Commitee on Banking supervision, Rules text. 2011. http://www.bis.org/publ.

***Вахид Адалат оглы Алиев***

## ***Теоретико-методологические вопросы эффективности системно значимых банков на рынке финансовых услуг***

### ***Резюме***

*Цель исследования – исследование теоретико-методологических вопросов эффективности системно значимых банков на рынке финансовых услуг. С этой целью рассмотрены особенности и раскрыты проблемы рынка финансовых услуг. Анализирована возможность развития рынка финансовых услуг с усилением роли системно значимых банков. Даны и обобщены основные функции системно значимых банков на рынке финансовых услуг страны. Рассмотрено повышение конкурентоспособности и роль системно значимых банков на рынке финансовых услуг в современном периоде. Методология исследования – состоит из экономических методов, в первую очередь, метода анализа, в т.ч. сравнительного анализа, и синтеза. Кроме того, учтены методологические подходы и труды разных учёных – экономистов по проблемам повышения роли системно значимых банков на рынке финансовых услуг. Практическая значимость исследования – полученные результаты исследования могут быть полезны для использования в разработке и реализации системных мероприятий и механизмов в усилении интенсивности рынка финансовых услуг, а также в подготовке учебных средств, лекций, презентаций и т.д. Результаты исследования – сформированы в предложениях и механизмах, которые отражают эффективность системно значимых банков в обеспечении повышения привлекательности рынка финансовых услуг в современных условиях. Оригинальность и научная новизна исследования объясняется тем, что основные материалы изложены на базе проводимых исследований и авторских подходов. В качестве главной научной новизны рассматривается обоснование ключевой роли системно значимых банков в повышении эффективности финансовых рынков страны в условиях глобальных угроз и рисков.*

***Ключевые слова:*** *банки, финансы, рынок финансовых услуг, системно значимые банки, проблемы развития рынка финансовых услуг, важность системно значимых банков, роль системно значимых банков на финансовом рынке.*



*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*

***Vahid Adalat Aliyev***

***Summary***

***Theoretical and methodological issues of the effectiveness of systemically important banks in the financial services market***

*Purpose of the research is to study theoretical and methodological issues of the effectiveness of systemically important banks in the financial services market. The peculiarities and problems of the financial services market are considered for this purpose. The possibility of developing the financial services market with strengthening the role of systemically important banks is analyzed. The main functions of systemically important banks in the country's financial services market are summarized. Increasing competitiveness and the role of systemically important banks in the financial services market in the modern period are considered. Research methodology – consists of economic methods, primarily the method of analysis, including comparative analysis, and synthesis. In addition, methodological approaches and the works of various economists on increasing the role of systemically important banks in the financial services market are taken into account. The practical importance of a research – the results of the study can be useful for use in the development and implementation of systemic measures and mechanisms in increasing the intensity of the financial services market, as well as in the preparation of materials, lectures, presentations, etc. Research results – are formed in proposals and mechanisms that reflect the effectiveness of systemically important banks in ensuring an increase in the attractiveness of the financial services market in modern conditions. Originality and scientific novelty of the research – is explained by the fact that the main materials are presented on the basis of ongoing research approaches. As the main scientific novelty, the rationale for the key role of systemically important banks in improving the effectiveness of the country's financial markets in the face of global threats and risks is considered.*



***Key words:*** *banks, finance, financial services market, systemically significant banks, problems of financial services market development, importance of systemically important banks, role of systemically important banks in the financial market.*

***Elmi redaktor: i.f.d., dos.Y.Məmmədov.***
***Daxil olub: 30.03.2022.***
***Çapa qəbul olunub: 07.04.2021.***

*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*